BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

№3 *Humanitar elmlər seriyası* 2015

UOT 94 "04/15"

# XVI ƏSRİN II YARISINDA SƏFƏVİ–AVROPA SİYASİ MÜNASİBƏTLƏRİNDƏ İQTİSADİ AMİLİN ROLU PROBLEMİ MÜASİR TÜRK TARİXŞÜNASLIĞINDA

**A.S.CAVADOVA**
***Bakı Dövlət Universiteti***
***almas.cavadova66@mail.ru***

*Məqalədə müasir türk tarixşünaslığı əsasında Səfəvi dövlətinin Osmanlı imperiyası və Avropa dövlətləri ilə tranzit ipək yoluna sahib olmaq uğrunda apardığı mübarizə əksini tapmışdır. Səfəvi dövlətinin Qərbi Avropa ilə qarşılıqlı əlaqələrində iqtisadi faktorun rolu göstərilmişdir.*

**Açar sözlər:** Səfəvi, türk, Avropa, Asiya, ipək

Uzun müddət davam edən Səfəvi-Osmanlı müharibələri nəticəsində zəifləmiş olan Səfəvi-Avropa əlaqələri XVI əsrin ortalarından başlayaraq yenidən canlandı (5, 182). XVI əsrdə Səfəvi dövlətinin bəzi Qərbi Avropa ölkələri ilə qarşılıqlı əlaqələrinin səbəbləri araşdırılarkən Osmanlı imperiyasının törətdiyi ümumi təhlükə ilə yanaşı, bəzi amillər də nəzərə alınmalıdır. Çünki Səfəvi dövləti özünün xarici iqtisadi və siyasi mənafeyini tənzim etmək niyyəti ilə Qərb dövlətlərinə müraciət edərkən, bəzi Avropa dövlətləri bundan istifadə edib özlərinin Şərqlə əlaqədar müstəmləkəçilik planlarını həyata keçirməyə çalışırdılar. XVI əsrin 60-70-ci illərində Səfəvi-İngiltərə əlaqələri də məhz bu məqsədlərin həyata keçirilməsinə yönəldilmişdir. Amerikaya və Hindistana gedən dəniz yollarında ağalıq edən İspaniya və Portuqaliya ilə Aralıq dənizi hövzəsini öz nəzarəti altında saxlayan Osmanlı imperiyasına qarşı hərbi-siyasi rəqabətə girməyə qadir olmayan gənc ingilis burjuaziyası Amerika və Asiya qitələrinin şimalından Hindistana yeni dəniz yolları Şimal-Qərb və Şimal-Şərq yolu açmağa cəhd göstərdi. Kraliça I Yelizaveta Tüdorun (1558-1603) zamanında qəti şəkildə müstəmləkə hökmranlığı yoluna qədəm qoymuş İngiltərə Hindistanla birbaşa əlaqələrini Volqa-Xəzər yolu, yəni Rusiya ərazisi vasitəsilə qurmağa qərar verir (9, 9). İngilis burjuaziyası Rusiya ərazisindən keçib Volqa-Xəzər yolu, Azərbaycan və İran vasitəsilə Hindistanla

birbaşa əlaqə yaratmaq qərarına gəldilər. Bu məqsədlə onlar 1553-1554-cü illərdə İngiltərənin Rusiya ilə və Rusiya ərazisi vasitəsilə Şərq dövlətləri ilə ticarət əlaqələrini inhisara alan «Moskva kompaniyası»nı yaratdılar. Bu kompaniyanın kapitalı 6000 funt sterlinq, 1 aksiyanın qiyməti isə 25 funta bərabər idi (13, 93). XVI əsrin 60-70-ci illərində (1561-1581) Səfəvi dövlətinə altı ekspedisiya göndərildi. Birinci ekspedisiya -1561-1564-cü illərdə; ikinci ekspedisiya 1563-1565-ci illərdə; üçüncü ekspedisiya-1565-1567-ci illərdə; dördüncü ekspedisiya-1568-1569-cu illərdə; beşinci ekspedisiya - 1568-1574-cü; altıncı ekspedisiya isə 1579-1581-ci illərdə göndərilmişdir. Bununla da orta əsrlərdə ilk dəfə olaraq, Azərbaycan Səfəvi dövləti ilə İngiltərə arasında əlaqə yarandı (5, 183).

XVI əsrdə ingilis səyyah və tacirlərinin Şimal yolu ilə Azərbaycan ərazisinə səyahətləri təkcə ticarət deyil, həmçinin iki dövlət arasında siyasi münasibətlərin nizamlanması məqsədini daşıyırdı (1, 63-64). 1562-ci ildə Azərbaycana gəlmiş ingilis səyyahı A.Cenkinson iqtisadi-coğrafi məlumatlarla yanaşı, Azərbaycanın ticarətlə bağlı problemlərindən də bəhs edir. Onun səyahətinin başlıca məqsədi Şah I Təhmasib tərəfindən iki dövlət arasında Volqa-Xəzər su yolu ilə ticarət əlaqələrinin gerçəkləşdirilməsi haqda razılıq əldə edilməsindən ibarət idi. Lakin A.Cenkinsonun bu səfəri uğursuzluqla nəticələndi. Bunun əsas səbəbi Səfəvi dövləti ilə Osmanlı imperiyası arasında bağlanmış sülh müqaviləsinin qüvvədə olması ilə birbaşa bağlı idi və Azərbaycanın Avropa ilə ticarət əlaqələrinin Kiçik Asiya ərazisi vasitəsilə həyata keçirilməsi mümkün idi (11, 99).

B. Əhmədov qeyd edir ki, XVI əsrin ortalarında ingilislərin Rusiya, sonradan Səfəvi dövləti ilə ticarət əlaqələrinin yaradılması gənc ingilis burjuaziyasının ticarət və müstəmləkə siyasəti sahəsində atdığı ilk addım idi. İspaniya və Portuqaliyanın cənub-qərb və cənub-şərq istiqamətindəki ticarət yollarına sahib olması nəticəsində yeni xammal mənbəyi və ticarət bazarlarına sahib olmaq uğrunda mübarizəyə qalxmasına səbəb oldu (2, 86).

XVI əsrin 60-cı illərində İngiltərənin Səfəvi dövləti ilə əlaqələr yaratmaq üçün cəhd göstərməsinin əsas səbəbi R.Haklyut külliyatına daxil olan sənədlərdə açıqlamasını tapmışdır. İngiltərə kraliçası Yelizaveta Tyüdorun Şah I Təhmasibə göndərdiyi 25 aprel 1561-ci il tarixli məktubu bu problemlə bağlı qiymətli mənbədir. Bu məktub A.Cenkinsonun Səfəvi dövlətinə gəlməsi, dövlətin sərhədləri daxilində sərbəst dolaşması üçün Səfəvi şahına edilən müraciət idi. İngilis kraliçası Səfəvi hökmdarına yazırdı: «Əgər bizim aramızda, dövlətlərimiz və xalqlarımız arasında xoşməramlı belə müqəddəs qonaqpərvərlik hüquqları və ümumi xeyirxah insani xidmətlər müəyyən edilərsə, ürəkdən müdafiə olunarsa və bunlara möhkəm riayət edilərsə, biz ümid edirik ki, bu kiçik başlanğıcdan bizim şərəf və şöhrətimiz naminə və xalqlarımızın böyük faydası naminə böyük nəticələr əldə olunmasına hər şeyə qadir olan Allahın özü kömək edər» (3, 194).

A.Cenkinsonun səyahəti dövlətlərarası ticarət əlaqələrinin canlanmasında

müəyyən nəticələrin əldə edilməsinə səbəb oldu. İngilis taciri Şirvan canişini Abdulla xan Ustaclı tərəfindən aldığı ticarət imtiyazlarının şərtlərinə əsasən Səfəvi dövləti ərazisində gömrük rüsumu ödəmədən və heç bir maneə olmadan ticarət etmək hüququna malik olurdu. O.Əfəndiyev qeyd edir ki, Abdulla xan Ustaclı ipəyin Rusiya və İngiltərəyə ixrac edilməsini Şirvanın, həmçinin bütün dövlətin iqtisadiyyatı üçün gəlirli iş hesab edirdi (17, 246). İngilis tacirlərinə aşağıdakı imtiyazlar verilmişdir:

1) Ölkə daxilində sərbəst ticarət etmək və istənilən müddətə qalmaq;
2) İngilis mallarının gömrüksüz idxalı və daxili bazarlarda sərbəst satılması hüququ (17, 247).

İngiltərə burjuaziyasının nümayəndəsi olan lord Haverşemin fikrincə, ticarəti siyasətdən və dövlət hakimiyyətindən ayırmaq olmaz və onlar bir-biri ilə sıx bağlıdırlar. İngilislərin XVI əsrin II yarısında Səfəvi dövləti ilə olan ticarəti də məhz dövlət siyasəti ilə bağlı olaraq müstəmləkə xarakteri daşıyırdı (2, 87).

İngilis tarixçisi Sayksın fikrincə, «fars» məsələsi ingilislərin fikrincə elə ipək məsələsi idi. Həqiqətən, Səfəvi dövləti ilə olan xam ipək ticarətindən ingilis tacirləri xeyli gəlir əldə edirdilər (2, 88).

İngilis burjuaziyasının Şərq siyasətinin işğalçılıq xarakteri bu dövlətin Rus dövlətinə qarşı yeritdiyi siyasətdə bir daha özünü göstərirdi. Bu, müstəmləkəçilik siyasətinin həyata keçirilməsi üçün hazırlanmış layihələrin məzmununda bir daha açıqlanır. Bütün layihələrdə Volqa-Xəzər yolunun işğalı məsələsi dururdu, bu siyasətin əsasını məhz Səfəvi dövlətinə olan maraq təşkil edirdi.

Azərbaycanı İngiltərə üçün daimi gəlir mənbəyinə çevirmək üçün ingilis taciri Eduards dövlətin əsas mərkəz şəhərlərində daimi ticarət faktoriyaları yaratmaq fikrini irəli sürmüşdür. Lakin Abdulla xan Ustaclının sonra isə şah Təhmasibin ölümü bu siyasətin icrasına mane oldu. Volqa-Xəzər yolunda möhkəmlənmək üçün Eduards kompaniyanın idarə heyətinə bu yolda gəmilərin sayının çoxaldımasını təklif etmişdir (2, 88).

«Moskva kompaniyası»nın nümayəndəsi olan L.Çepmen qeyd etmişdir ki, gətirdiyimiz malın müqabilində buradan alacağımız mal əsasən bütün rənglərdə xam və emal edilmiş şəkildə ipək, ədviyyat, mirvari, qiymətli daşlar, müxtəlif xalçalar və digər qiymətli mallardan ibarət olacaqdır. Hər hansı bir Səfəvi şəhərində istehsal edilən ipəyin miqdarı Londonda istehsal edilən mahudun miqdarından çox idi (11, 147).

Əgər İngiltərə Səfəvi dövlətinə ucuz xammal mənbəyi və sərfəli bazar kimi yanaşırdısa, Səfəvi dövləti də İngiltərə ilə qarşılıqlı münasibətlər qurduqda bir sıra siyasi problemlərin həll edilməsinə, xüsusən Qərbdə beynəlxalq antiosman münasibətlərinin yaradılması problemini həll etməyə çalışırdı. Səfəvi dövlətinin əsas məqsədi antiosman hərbi siyasi ittifaqına qarşılıqlı siyasi və iqtisadi münasibətlərə malik olduğu bütün Avropa dövlətlərinin daxil olmasına çalışmaqdan ibarət idi. Bu fakt İngilis kompaniyasının nümayəndələri

ilə Səfəvi hökmdarı arasındakı danışıqların mətnində də əksini tapır. İngilis diplomatı yazır ki, Səfəvi şahı məndən bizim ölkənin vəziyyəti, Alman imperatoru, kral Filipp və Böyük Sultanın əzəməti barəsində və onların hansının güclü olması haqda soruşurdu (3, 209). İngilis səfiri A.Eduardsla danışıqlar zamanı Şah I Təhmasib ondan Avropadakı vəziyyət, ilk növbədə ispan-türk və ingilis-rus münasibətləri haqda soruşmuşdur (3, 227).

XVI əsrin 60-cı illərindən yaranmış olan Səfəvi-İngilis əlaqələri iki dövlət arasında daimi iqtisadi və siyasi münasibətlərin qurulması ilə nəticələndi. Rus çarı IV İvanın Livoniya müharibəsi (1558-1583) zamanı İngiltərəni bir müttəfiq kimi öz tərəfinə çəkə bilməməsi nəticəsində ingilis tacirlərinə verilən ticarət imtiyazları inkar edildi. Bununla da İngilis tacirlərinin Rus dövləti ərazisindən keçməklə Volqa-Xəzər ticarət yolu ilə gerçəkləşdirilən Şərq ticarətinə qadağan qoyulmuş oldu. Rus çarı tərəfindən «Moskva kompaniya»sına qarşı qəti tədbirlərin irəli sürülməsinin əsas səbəblərindən biri də ingilis ticarət kapitalının rus bazarlarında möhkəmlənməsindən rus tacirlərinin narazı olması, həmçinin İngiltərənin Volqa-Xəzər su yolu vasitəsilə Səfəvi dövləti ilə iqtisadi və siyasi əlaqələr yaratması və bu bölgədə mövqeyinin getdikcə möhkəmlənməsi Rus çarının bu ərazilər üçün nəzərdə tutduğu gələcək planlara zidd idi. XVI əsrin sonunda Azərbaycanın digər ərazilərinin osmanlı qoşunları tərəfindən işğal olunması da «Moskva kompaniyası»nın fəaliyyətinin zəifləməsinə və 1579-1581-ci illərdə kompaniyanın Səfəvi dövlətinə göndərdiyi sonuncu ekspedisiyanın fəaliyyətinin uğursuzluğuna səbəb oldu. İngilis hökuməti Rus dövləti tərəfindən kompaniyanın fəaliyyəti üçün yeni imtiyazlar almaq məqsədi ilə 1600-cü ildə Riçard Li, 1602-ci ildə Con Merik, 1604-cü ildə Tomas Smiti Rus dövlətinə göndərdi. Lakin Rusiya bu tələbləri rədd etdi (2, 89). Məhz Rus dövlətinin siyasəti ingilis müstəmləkəçilərinin öz məqsədlərinə çatmasına mane oldu (7, 74).

Kazan və Həştərxan xanlıqlarının 1552-1556-cı illərdə işğalı ilə Xəzər dənizinə çıxış yoluna malik olan Rus dövləti Volqa-Xəzər ticarət yolu üzərində İngiltərənin möhkəmlənməsinə razı ola bilməzdi. IV İvan Rus dövləti ərazisindən keçməklə Volqa-Xəzər su yolu ilə Azərbaycanla ticarət etmək niyyətində olan Venesiyanın da öz planlarını reallaşdırmasına razı olmadı (16, 25).

Rus dövlətinin yeritdiyi bu siyasət nəticəsində Osmanlı imperiyası və Portuqaliya tərəfindən Aralıq dənizi və Hind okeanı yolu ilə ticarətdən məhrum olmuş Səfəvi dövlətinin Rus dövləti ərazisindən keçməklə Volqa-Xəzər su yolu ilə Avropa dövlətləri ilə birbaşa ticarət əlaqələri yaratmaq və bu yolla ölkənin iqtisadi tənəzzülünü aradan qaldırmaq planı uğursuzluqla nəticələndi. Azərbaycanın xarici ticarət əlaqələrində Rus bazarları üstün mövqeyə malik oldular (6, 177).

XVI əsrin II yarısında Osmanlı imperiyasının yeritdiyi xarici siyasətin əsasında əvvəlki dövrlərdə olduğu kimi ziddiyyətli problemlərin hərbi yolla həll edilməsi planı dururdu. Bu məqsədlə Osmanlı imperiyası Avropa cəbhəsində hərbi əməliyyatlara başladı. 1570-1573-cü illər arasında davam edən

Osmanlı-Venesiya müharibəsində Venesiya ilə bir antiosman blokunda İspaniya, Malta, Genuya, Savoyya və başqa İtaliya dövlətləri, həmçinin Roma papası vuruşurdu. 1571-ci ildə Lepanto yaxınlığındakı dəniz savaşında koalisiyanın qüvvələri türk donanmasını məğlub etdi. Bu döyüş Osmanlı qüvvələrinin qələbəsi ilə nəticələnən Osmanlı-Venesiya müharibəsi zamanı Osmanlı imperiyasının hərbi qüdrətinin zəiflədiyini göstərən ilk döyüş əməliyyatı idi (17, 40).

XVI əsrin 80-90-cı illərində Hind okeanı və Fars körfəzi bölgəsində öz mövqelərini möhkəmlətmək üçün İngiltərə ilə Portuqaliya arasında hərbi-siyasi ziddiyyətlər başladı (13, 43).

İngiltərənin bu bölgədə yeritdiyi siyasət birbaşa Fars körfəzini ələ keçirməklə Səfəvi dövləti ilə ticarət əlaqələrini yenidən canlandırmaqdan ibarət idi. Fars körfəzi vasitəsilə Səfəvi dövləti ilə ticarət əlaqələri yaratmağa cəhd edən dövlətlərdən biri də Hollandiya idi.

XVI əsrdə İspaniyanın siyasi cəhətdən güclənməsi Portuqaliya üçün təhlükəli idi və nəticədə 1580-ci ildə Portuqaliya üçün məhvedici oldu. İspan kralı II Filipp Portuqaliya sülaləsinin kəsilməsindən istifadə edərək özünü, Portuqaliya taxt-tacının qanuni varisi elan etdi və öz mövqeyini möhkəmlətmək üçün hersoq Albanun başçılığı ilə güclü ordunu oraya göndərdi. Bununla da Portuqaliya İspaniyanın mülkiyyətinə çevrilmiş oldu. Lakin Avropada baş verən müharibələrə başının qarışması nəticəsində İspaniya Portuqaliyanın Şərqdəki müstəmləkələrinin müdafiəsi üçün heç bir tədbir görmədi. Nəticədə bu bölgədəki ticarətdə Hollandiya getdikcə Portuqaliyanı sıxışdıraraq üstünlüyü ələ almağa nail oldu (12, 389).

Ümumiyyətlə, Portuqaliya Şərq ticarətindən xeyli gəlir əldə etmişdir. 1493-cü ildən 1600-cü ilədək olan müddətdə təkcə Afrikadan 276.000 kq qızıl ixrac edilmişdir (8, 384). Şərq mallarını ucuz qiymətə alan portuqallar Avropada bu malları 7-8 dəfə baha qiymətə satırdılar. Onlar hər il Avropaya 5-6 gəmi ədviyyat ixrac edirdilər, bu isə hələ Böyük coğrafi kəşflərdən öncə venesiyalıların Avropaya ixrac etdikləri xammaldan 2-3 dəfə çox idi (12, 386). Şərq malları, xüsusən xam ipək İspaniya iqtisadiyyatında ipək sənayesi üçün mühüm xammal hesab edilirdi. Vaxtilə ərəblər tərəfindən yaradılmış bu sənaye sahəsi üçün xammal daxildəki Andalusiya, Valensiya, Qranada, Mursiya şəhərləri ilə yanaşı, Şərqdən, xüsusən Azərbaycandan daxil olurdu (12, 410).

XVI əsr ticarətinin əsas xüsusiyyətlərindən biri də ticarət yollarının Atlantik, Hind və sonralar Sakit okeana doğru istiqamətlənməsi idi. Bunun nəticəsində çay və dəniz ticarəti okean ticarəti tərəfindən sıxışdırılmış oldu (12, 375). XVI əsrin II yarısında Osmanlı imperiyasının hakim dairələri genişmiqyaslı işğalçılıq siyasətini davam etdirirdilər. Lakin yeni müharibələr nəticəsində əvvəlki dövrlərdəki uğurlar əldə edilmirdi. Çünki əgər XV-XVI əsrlərdə Osmanlı sultanlarının yeritdiyi xarici siyasətin əsasında Avropa, Asiya və Afrika istiqamətində işğalçılıq planlarını həyata keçirmək dururdusa, artıq I Süleymanın dövründən etibarən əsas diqqət dünya dövləti statusunun qorun-

masına yönəldilmiş oldu (10, c.2, 215).

XVI əsrin sonlarında Osmanlı imperiyası Səfəvi dövləti ilə bağlı nəzərdə tutduğu planları həyata keçirməyə cəhd etdi. Osmanlı dövləti Azərbaycan ipəyini inhisara almaq, Xəzərətrafı və Fars körfəzi bölgələrində möhkəmlənmək planlarını həyata keçirmək, Qərb cəbhəsində neytral vəziyyət yaratmaq üçün 1575-ci ilin avqust ayında Venesiya respublikası ilə 7 mart 1573-cü ildə bağlanmış müqavilənin vaxtını uzatdı (4, c.3, 6).

1577-ci il 30 iyul tarixində Polşa ilə sülh müqaviləsi imzalandı. 1577-ci il 1 yanvar tarixində 1568-ci il fevralın 17-də Avstriya ilə bağlanmış müqavilənin qüvvədə olma vaxtının daha səkkiz il müddətinə uzadılması ilə Osmanlı imperiyası üçün bütün hərbi qüvvələrini Səfəvi dövlətinə qarşı istiqamətləndirmək imkanı yaranmış oldu (4, c.3, 8). 1578-1590-cı illərdə baş vermiş Osmanlı-Səfəvi müharibəsi zamanı Səfəvi dövləti Osmanlı imperiyasına qarşı bir sıra Avropa dövlətlərini, xüsusən İspaniya, Portuqaliya və Papalığı müharibəyə qaldırmağa təşəbbüs etdi. Lakin Qərbi Avropada baş verən siyasi hadisələr, xüsusən özünün irticaçı məqsədlərini, başlıcası Qərbi Avropa dövlətləri üzərində siyasi üstünlüyünü həyata keçirməyə çalışan İspan kralı II Filipp və Papalığın əsas məqsədi Səfəvi dövlətini Osmanlı imperiyasına qarşı müharibəyə cəlb etməklə İspaniya monarxiyasının vəziyyətini yüngülləşdirmək və beləliklə II Filippin və onun müttəfiqi XIII Qriqorinin feodal-katolik irticasını gücləndirmək üçün əl-qolunu açmaq idi (15, 32).

Səfəvi dövləti ilə ittifaq II Filippə türk qüvvələrini iki cəbhədə mübarizəyə cəlb etməklə İspaniyanın Aralıq dənizi əyalətlərinin mühafizəsini təmin etmək üçün lazım idi. Səfəvi dövləti ilə münasibətdə Portuqaliya hökuməti İspaniya ilə eyni mövqedən çıxış edirdi və o, Səfəvi şahını inandırmağa çalışırdı ki, məhz İspan kralı türklərə qarşı Misir və Suriyanın bütün müsəlman və xristianlarını mübarizəyə qaldıra bilər. İspaniya kimi Portuqaliyanın da əsas siyasəti Səfəvi dövlətini türklərə qarşı uzunmüddətli müharibəyə qaldırmaqdan ibarət idi (14, 121). Fars körfəzində öz mövqeyini daha da möhkəmləndirmək üçün Portuqaliya həm Səfəvi və həm də Osmanlı imperiyasının siyasi cəhətdən zəifləməsini istəyirdi (6, 188). Lakin əsrin əvvəllərində olduğu kimi, bu dəfə də Səfəvi-Osmanlı qarşıdurmasında Avropa dövlətləri siyasi müttəfiq kimi çıxış etmədilər (14, 122).

## ƏDƏBİYYAT


1. Ашурбейли С.Б. Баку в XVI-XVIII вв. по описанию путешественников // Изв. АН Азерб. ССР, 1947, №1, с. 63-73
2. Ахмедов Б.А. Характер торговых отношений Англии с Азербайджаном во второй половине XVI и начале XVII вв. // Ученые записки АГУ (серия история и философия), 1971, №5, с. 86-90
3. Английские путешественники в Московском государстве в XVI веке. Перевод с английй. Ю.В.Готье, Л.: 1937, 306 с.
4. Danişmend İ.H. İzahlı Osmanlı tarihi kronolojisi: 3 ciltde, 3 c., İstanbul: Türkiye Yayınevi, 1950, 805 s.

5. Mahmudov Y.M. Öyrənilməmiş səhifələr. Bakı: Gənclik, 1972, 98 s.
6. Махмудов Я.М. Взаимоотношения государств Аккоюнлу и Сефевидов с западноевропейскими странами. Баку: Бак. Унив., 1991, 241с.
7. Накашидзе Н.Т. Русско-английские отношения во второй половине XVI в. Тбилиси: Изд. Тбилис. Унив., 1955, 156 с.
8. Османская империя и страны Центральной, Восточной и Юго-Восточной Европы в XV-XVI вв. М.: Наука, 1998, 301с.
9. Cəfərli N. Səfəvilər dövləti: məhkəmə orqanları və hərbi təşkilatın quruluşu. Bakı: Hüquq ədəbiyyatı, 2000, 159 s.
10. Источниковедческие разыскания.1982.Тбилиси: Мецниереба, 1985, 266 с.
11. Путешественники об Азербайджане. Баку: АН Аз. ССР, 1961, т.1, 297 с.
12. Полянский Ф.Я. Экономическая история зарубежных стран (эпоха феодализма). М.: МГУ, 1954, 506 с.
13. Туманович Н.Н. Европейские державы в Персидском заливе в XVI-XIX вв. М.: Наука, 1982, 188 с.
14. Шахмалиев Э.М. Дипломатические отношения Испании с Сефевидским государством во второй половине XV века // Ученые записки АГУ им. С.М.Кирова, 1955, с.117-127
15. Шахмалиев Э.М. Донесение папского посла Векьетти о Сефевидском государстве // Ученые записки Министерство высшего среднего специального образования Азерб. ССР, Серия история и философия, 1977, №4, с. 32-37
16. Шаркова И.С. Россия и Италия. Торговые отношения XV-первой четверти XVIII в. Под ред. член корр. АН СССР, В.И.Рутенбурга. Л.: Наука, 1981, 207 с.
17. Эфендиев О.А. Азербайджанское государство Сефевидов в XVI веке. Баку: Элм, 1981, 307 с.

## РОЛЬ ЭКОНОМИЧЕСКОГО ФАКТОРА В СЕФЕВИДО-ЕВРОПЕЙСКИХ ПОЛИТИЧЕСКИХ ОТНОШЕНИЯХ ВО ВТОРОЙ ПОЛОВИНЕ XVI ВЕКА В СОВРЕМЕННОЙ ТУРЕЦКОЙ ИСТОРИОГРАФИИ

**А.С.ДЖАВАДОВА**

### РЕЗЮМЕ

В статье на основе современной турецкой историографии рассмотрены вопросы, связанные с борьбой между Сефевидским государством Османской империей и Европейскими странами за владение транзитным шелковым путем, за присоединение азербайджанских территорий, являющихся основным источником шелка-сырца. Показано роль экономического фактора во взаимоотношениях между Сефевидами и Западной Европой.

**Ключевые слова:** Сефеви, тюркский, Европа, Азия, шелк

**THE ROLE OF THE ECONOMIC FACTOR IN THE POLITICAL RELATIONSHIP OF SAFAVID – EUROPEAN STATES IN THE SECOND HALF OF THE XVI CENTURY IN THE MODERN TURKISH HISTORIOGRAPHY**

**A.S.JAVADOVA**

**SUMMARY**

The article studies the questions of struggle between the Safavid state with the Ottoman empire and Europian states for possession in the transit silk way, for joining Azerbaijan territories that were the basic source of silk on the basis of a modern Turkish historiography. The role of an economic force in mutual relations between Safavid state and the Western Europe is shown.

**Key words**: Safavi, Turkish, Europe, Asia, Shilk